ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 7 (1) İlkbahar 2020 ss 496-512

Academic Journal of History and Idea, 7 (1) Spring 2020 pp 496-512

Araştırma Makalesi
Original Article

# XVI-XVII Əsrlərdə Təbrizdə Baş Verən Zəlzələlərin Əhali Sayına Təsiri

**Elnur Nəciyev***

**ORCID: 0000-0003-3989-6257**

**Xülasə**

Məqalədə Səfəvilər dövründə Təbrizdə baş verən zəlzələlər haqqında ətraflı məlumat verilir. Azərbaycanın qədim şəhəri Təbrizin ərazisi geoloji quruluşuna görə seysmik bölgə olduğu üçün uzun illər boyu güclü və nisbətən zəif zəlzələlərə məruz qalmışdır. Zəlzələlər 1522, 1527, 1550, 1623, 1633, 1640-1641, 1650, 1657, 1664, 1668-ci illərdə xeyli insanın ölümünə və şəhərdəki bir çox tikililərin dağılmasına səbəb olmuşdur. Bu zəlzələlərin nəticəsində şəhər güclü dağıntılara məruz qalsa da, yenidən bərpa edilmişdir. Baş verən zəlzələlər nəticəsini rəqəmlərlə ifadə etmək çətin olmasa da, bütövlükdə Azərbaycan Səfəvi dövlətinin Təbriz bəylərbəyiliyi çərçivəsində ölən insan sayı təxminən 300.000 nəfərdən artıq olmuşdur.

**Açar sözlər:** Səfəvilər, Azərbaycan, Təbriz, Dehqarqan, əhali, təbii fəlakət, zəlzələ.

**Gönderme Tarihi: 25/02/2020** **Kabul Tarihi:25/03/2020**

* *AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi demoqrafiyası" şöbəsinin doktorantı, E-Mail:elnurneciyev@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır

# The Influences Of Earthquakes In Tabriz The Number Of Population In The XVI - XVII Centuries

**Elnur Nəciyev**
**ORCID: 0000-0003-3989-6257**

**Abstract**

The article gives detailed information about earthquakes that occurred in Tabriz in the Safavid period. The geological structure of the territory of Tabriz, the ancient city of Azerbaijan belongs to seismic zone, so for many years Tabriz was repeatedly subjected to strong destruction and relatively small earthquakes. The earthquakes have claimed many lives, destroyed many buildings in the city in the years 1522, 1527, 1550, 1623, 1633, 1640-1641, 1650, 1657, 1664, 1668. As a result of these earthquakes the city was subjected to strong destruction, but restored. Although it is not possible to express the result of the destructive earthquakes with numbers in general, we can conclude that the number of those who died within the framework of Tabriz Beylerbegilik of Azerbaijan Safavid state in general is more than 300,000 based on the estimated numbers.

**Keywords**: Safavids, Azerbaijan, Tabriz, Dehkhargan, population, natural disaster, earthquake.

**Received Date: 25/02/2020** **Accepted Date: 25/03/2020**

# Влияние Землетрясений в Тебризе На Численность Населения В XVI-XVII ВВ.

**Резюме**

В статье приводятся обстоятельные сведения о землетрясениях, имевших место в Тебризе в период Сефевидов. По своему геологическому строению территория древнего азербайджанского города Тебриза относится к сейсмической зоне, поэтому на протяжении многих лет Тебриз неоднократно подвергался сильнейшим разрушениям, а также сравнительно небольшим землетрясениям. Землетрясения в 1522, 1527, 1550, 1623, 1633, 1640-1641, 1650, 1657, 1664, 1668 гг. унесли много человеческих жизней, разрушили многие здание города. В результате этих землетрясений город подвергался сильнейшим разрушениям, но вновь восстанавливался. Хотя невозможно выразить результат разрушительных землетрясений с помощью цифр в целом, мы можем сделать вывод, что число погибших в рамках Тебризского беглярбекство азербайджанского Сефевидского государство в целом составляет более 300 000 на основе оценочных чисел.

**Ключевые слова:** Сефевиды, Азербайджан, Тебриз, Деххарган, население, стихийное бедствие, землетрясение.

**Получено: 25/02/2020** **Принято: 25/03/2020**

## Giriş

Azərbaycanın qədim şəhəri Təbrizdə baş vermiş bir sıra təbii fəlakətlər demək olar ki, vətən tarixşünaslığında tədqiqata cəlb edilməmişdir. Yalnız bəzi ümumi tədqiqatlar çərçivəsində bu məsələyə toxunulmuşdur.[1] Müxtəlif dövrlərdə olduğu kimi Azərbaycan Səfəvi dövləti dövründə də zəlzələlər nəticəsində bir neçə dəfə dağılıb qəsəbə halına düşmüş, sonralar yenidən bərpa olunaraq sənətkarlıq və ticarət mərkəzi səviyyəsinə qalxmış Təbriz şəhərinin əhalisi üçün bu fəsadların miqyasının və nəticələrinin öyrənilməsinə ehtiyac duyulur. Məqalədə qarşıya qoyulan əsas məqsəd də bu problemin tədqiqidir. Problemin tədqiqinə keçməzdən öncə qeyd etmək lazımdır ki, bu şəhər Azərbaycan Səfəvi dövlətinin ilk mərkəzi olmuşdur. 1501-ci ildə İsmayıl Təbrizdə hakimiyyətə keçdi və Azərbaycan Səfəvi dövləti rəsmən yaranmış oldu. Dövrün mötəbər mənbələrinin bu barədə verdiyi məlumatlar Azərbaycan adı ilə Səfəvi dövlətinin yaranmasını sübut edir. Səfəvişünas alim Zabil Bayramlı müxtəlif mənbələrə istinadən bu faktı təsdiq edir. Məsələn, "Lübbət-təvarix" də İsmayılın Şərur qələbəsindən sonra darossəltənə-ye Təbrizə gəlib "sərir-e səltənət-e Azərbaycan"-Azərbaycan şahlıq taxtından oturub oranı şahlığı ilə bəzədiyi yazılmışdır. Məhəmməd Yusif Qəzvini isə yazır ki, Şərur döyüşündən sonra İsmayıl darossəltəne-ye Təbrizə üz tutdu və Azərbaycan şahlıq taxtına oturdu. Bütün Azərbaycan məmləkətində onun adına xütbə oxundu, dinar və dirhəm zərb edildi. [2] Təbrizin paytaxt olaraq qərar verilməsi həm Azərbaycanın dövlətçilik tarixi, həm də bu şəhərin əhalisinin mütləq əksəriyyətinin Azərbaycan türkü olması ilə bağlı olmuşdur. Bu səbəbdən də şəhər müxtəlif təbii fəlakətlərdən zərər görəndə belə tez bir zamanda bərpasına xüsusi diqqət ayrılmış və şəhərin qısa zamanda əvvəlki əzəmətinin bərpa edilməsinə nail olunmuşdur.

Təbii fəlakətlər müxtəlif amillərin insana və ətraf mühitə təsiri nəticəsində insan tələfatı və ağır zədələnmələrə gətirib çıxarır, böyük maddi və mənəvi zərərlər vurur. Yaranma səbəblərinə və davam etmə müddətinə görə müxtəlif cür təsnif edilən təbii

[1] Abullhasan Rahmani, Azerbaydjan v kontse *XVI i v XVII veke (1590-1700 qodı)*, Baku: Elm, 1981; Seyidağa Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*, Bakı: Elm, 1982; Clifford Bosworth, *Historic Cities of the Islamic World*, Leiden-Boston: Brill, 2007.

[2] Zabil Bayramlı, Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olumasında türk-qızılbaş əyanlarının rolu, Bakı: Avropa, 2015, 31.

fəlakətlərin geoloji-tektonik növü hesab edilən zəlzələ yerdə baş verən dinamik proseslər nəticəsində yaranır, yeraltı zərbələr və yerin üst qatının titrəməsi ilə müşayiət olunur. Güclü yeraltı təkanlar evləri və tikililəri uçura və yer sürüşmələrini əmələ gətirə və nəticədə də insanların ölümünə səbəb ola bilər. Azərbaycan Səfəvi dövlətinin hüdudlarına daxil olan ərazilərdə-Dağıstandan Hörmüzə, Hakkari və Ərbildən Əsfərayinə qədər geniş bir ərazidə 1503-cü ildən 1722-ci ilə qədər ən dağıdıcı 50 (51) zəlzələ hadisəsi qeydə alınmışdır.[3] Zəlzələ kataloqlarından [4] Təbriz hüdudlarında XVI-XVII əsrlərdə 12 dağıdıcı zəlzələ hadisəsinin baş verməsi məlum olur (Cədvəl 1).

| № | Baş vermə tarixi | Baş verdiyi koordinatlar və məntəqə | Həlak olan insan sayı (nəfərlə) | İstinad edilən əsər | Əhali sayı (zəlzələyə qədər) (nəfərlə) | İstinad edilən mənbə |
|---|---|---|---|---|---|---|
| 1 | 1522 | $38.0^0$ şm.e-$46.2^0$ ş.u.; Təbriz | 70.000 | [5] | 200.000-300.000 | [6] |
| 2 | 1527 | $38.0^0$ şm.e-$46.2^0$ ş.u.; Təbriz | Yüksək | | | |
| 3 | 20.01.1550 | $38.0^0$ şm.e-$46.0^0$ ş.u.; Təbriz | Yüksək | [7] | 300.000- | [8] |

[3] Manuel Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran. Volume 1: Historical hazards in Iran prior to 1990*. Tehran: IIEES, 1995, 257-266.
[4] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 257-266; *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.* USA: U.S. Dept. of Commerce, National Oceanic and Atmospheric Administration, National Environmental Satellite, Data, and Information Service, National Geophysical Data Center. 1992, 25-26, 30-33, 37-38.
[5] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D., 25.*
[6] Namiq Musalı, *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında)*, Bakı: Elm və Təhsil, 2011, 363; Seyidağa Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*, Bakı: Elm, 1982, 72, 159; Clifford Bosworth, *Historic Cities of the Islamic World*, Leiden-Boston: Brill, 2007, 492.
[7] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 26.
[8] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 159.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1550 | 38.0$^0$ şm.e-46.0$^0$ ş.u.; Təbriz | - | [10] | 400.000, yaxud da 360.000 | [9] |
| | 1550 | 38.0$^0$ şm.e-46.0$^0$ ş.u.; Təbriz | Yüksək | | | |
| | 1550 | Təbriz | - | | | |
| 4 | 1567 | Təbrizin şimalında, cənubi Arazbaranda | - | [11] | | |
| 5 | 1623 | Təbriz | - | [12] | - | - |
| 6 | 1633 | 38.0$^0$ şm.e-46.2$^0$ ş.u.; Təbriz | Orta | [13] | 200.000-250.000 | [14] |
| 7 | 27.02.1640 | 38.0$^0$ şm.e-46.3$^0$ ş.u.; Təbriz | Orta | [15] | - | - |
| | 27.02.1640 | 38.2$^0$ şm.e-46.3$^0$ ş.u.; Təbriz | - | [16] | - | - |
| | 27.02.1640 | Təbriz | 12.600 | [17] | - | - |
| 8 | 05.02.1641 | 38.0$^0$ şm.e-46.1$^0$ ş.u.; Təbriz | 30.000 | [18] | - | - |
| | 05.02.1641 saat 12:18-də | 38.0$^0$ şm.e-46.1$^0$ ş.u.; Dehqarqan-Təbriz | 1200 | [19] | - | - |
| | 05.02.1641 saat 18:00-da | 38.0$^0$ şm.e-46.1$^0$ ş.u.; Təbriz | 1200 | | - | - |
| | 05.02.1641 | 38.0$^0$ şm.e-46.3$^0$ ş.u.; Təbriz-Üskü | | | - | - |
| | 05.02.1641 | 38.0$^0$ şm.e-46.1$^0$ ş.u.; Dehqarqan-Təbriz | 12.613 | | - | - |
| 9 | 05.04.1641 | 37.7$^0$ şm.e-46.2$^0$ ş.u.; Dehqarqan | - | | - | - |

[10] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 257.
[9] İbrahim Peçevi, *İstoriya. (İzvleçeniya po istoii Azerbaydjana i sopredelnıx stran i oblastey perioda 1520-1640 qq.)*, Baku: Elm, 1988, 65; *Rossiya i Yevropa qlazami Orudj-Beka Bayata – Don Juana Persidskoqo*. SPb: İzdatelstvo SPbQU, 2007, 31-32; Guy Le Strange, *Don Juan of Persia A Shi'ah Catholic 1560–1604*, Publishers Harper- Brothers. New York and London, 1926, 42-43.
[11] Yəhya Zəka, *Zəminlərzeha-ye Təbriz*. Tehran: Ketabsəra, 1368, 54.
[12] Seyidağa Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", *Azərbaycan SSR EA Məruzələri*, sy. 1 (1976): 99.
[13] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 30.
[14] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 162.
[15] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 31.
[16] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 260.
[17] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 160.
[18] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 31.
[19] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 260.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10 | 04.01.1650 | $38.0^0$ şm.e-$46.2^0$ ş.u.; Təbriz | Yüksək | [20] | 300.000-400.000 | [21] |
| | 1650 | $38.4^0$ şm.e-$45.4^0$ ş.u.; Təbriz | - | [22] | | |
| | 1650 | $38.2^0$ şm.e-$46.3^0$ ş.u. | - | | | |
| | 1650 | $38.2^0$ şm.e-$46.3^0$ ş.u. | - | | | |
| 11 | 1657 | $38.5^0$ şm.e-$54.1^0$ ş.u. | - | | | |
| 12 | 1664 | $38.0^0$ şm.e-$46.2^0$ ş.u.; Təbriz | Yüksək | [23] | | |
| | 1664 | $37.9^0$ şm.e-$47.5^0$ ş.u.; Təbriz | - | [24] | | |
| | 1664 | $38.1^0$ şm.e-$46.3^0$ ş.u.; Təbriz | - | | | |
| 13 | 04.01.1668 | $38.0^0$ şm.e-$46.2^0$ ş.u.; Təbriz | Yüksək | [25] | | |

*Cədvəl 1: Səfəvilər dövründə Təbrizdə baş verən zəlzələlər*

Geoloji quruluşuna görə, Azərbaycanın qədim şəhəri Təbriz seysmik sahədə yerləşir. Məhz buna görə də tarix boyu Təbrizi dəfələrlə dəhşətli və nisbətən zəif zəlzələlər titrətmiş, dağıtmışdır.[26] Hələ Səfəvilərə qədər 855 (yaxud da 858, 864, 868), [27] 1042, 1272 (yaxud da 1273[28]), 1304,[29] 1345, 1459-cu illərdə [30] baş vermiş yeraltı təkanlar zamanı şəhər ciddi ziyan görmüşdü. Dağıntıların və itkilərin miqyasının geniş olmasına baxmayaraq şəhər hər dəfə yerli hakimlərinin tədbirləri nəticəsində yenidən öz əvvəlki əzəmətini bərpa etməyi bacarmışdı. Azərbaycan Səfəvi dövləti dövründə də Təbriz şəhəri və ətrafında qeydə alınan yeraltı təkanlar xeyli insan itkisinə və geniş miqyaslı dağıntılara səbəb olmuşdu. 1503-cü ildə Hakkari, Əhlat və Mosulda baş verən dağıdıcı zəlzələ Təbrizdə hiss olunsa da hər hansı bir dağıntıya səbəb olmamışdı.[31]

---

[20] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 32.
[21] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 162.
[22] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 260.
[23] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 33.
[24] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 261.
[25] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 33.
[26] Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", 98.
[27] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 228; Charles Melville, "Historical Monuments and Earthquakes in Tabriz". *Iran*, vol. 19 (1981), 167.
[28] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 247; Melville, "Historical Monuments and Earthquakes in Tabriz", 167.
[29] Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", 98-99.
[30] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 249, 253; Melville, "Historical Monuments and Earthquakes in Tabriz", 167.
[31] Melville, "Historical Monuments and Earthquakes in Tabriz", 163.

### XVI əsrdə Təbrizdə baş verən zəlzələlər

XVI əsrdə şəhərdə 3 dəfə dağıdıcı zəlzələ hadisəsi (1522, 1527, 1550-ci illərdə) qeydə alınmışdır. Baş verən zəlzələlər zamanı həlak olan insan sayını təxmini olaraq müəyyənləşdirmək üçün həmin dövrdə Təbriz əhalisinin sayına nəzər saldıqda müxtəlif rəqəmlər əldə edirik. Müxtəlif tədqiqatçılara görə, 1501-ci ildə Təbriz şəhərində əhali sayı 200-300.000 nəfər idi.[32] Səfəvi tarixçisi Xondəmirə istinadən S. Onullahi yazır ki, "1524-cü ildə Təbrizi əhalinin çoxluğu cəhətdən dünyanın dörddə biri"ni[33] təşkil edirdi. 1522-ci ildə baş verən zəlzələ zamanı 70.000 nəfər insan həlak olmuşdu. Həmin dövrdə əhali sayının maksimum 300.000 nəfər olmasını nəzərə alsaq, baş verən rəqəmi təxmini olaraq qəbul etmək olar. Çünki, əlimizdə müqayisə üçün yetərli qaynaq yoxdur. Eyni ilə də, 1527-ci il zamanı da, həlak olanların sayı yüksək olaraq dəyərləndirilir, lakin rəqəm verilmir. Həmin dövrdə Təbrizin Azərbaycan Səfəvi dövləti şəhərləri arasında əhali çoxluğu cəhətdən ilkin yerlərdən birini tutmasını, ilkin və sonrakı dövrlərdə baş verən zəlzələlər zamanı da həlak olan insan sayını nəzərə alarsaq, bu rəqəm o qədər qabardılmış görünmür. Müqayisə üçün qeyd edək ki, 1042-ci ildə oktyabrın 4-dən noyabrın 6-na qədər bir neçə dəfə təkrar olunmuş zəlzələ zamanı 40-50.000 nəfər həlak olmuşdu.[34] Yaxud da 1192-ci il Şamaxı zəlzələsi nəticəsində şəhər tamamilə dağıldığından mərkəz Bakıya köçürülməli olmuşdu.[35] Bu baxımdan da Təbriz zəlzələsi zamanı həlak olan insan sayını əhalinin ¼-ni təşkil etməsini nisbi olaraq qəbul edə bilərik. Təbrizdə 1550-ci ilin yanvarın 20-də 6-7 bal gücündə baş verən zəlzələdə [36] həlak olanların sayı göstərilməsə də, yüksək olaraq dəyərləndirilir. [37] Təsadüfi deyil ki, Ibn Fəzlullah əl-Öməriyə istinadən Yəhya Zəka "Təbriz zəlzələləri" əsərində Təbrizdə bu zəlzələ barədə yazırdı ki, hicri 987-ci (m.1550) ildə Təbrizdə baş vermiş yeraltı təkanlar 6 gün davam etdi və hətta Təbriz yaxınlığındakı bir dağ 4 hissəyə parçalandı, çıxan toz və duman üfüqləri zülmətə bürüdü. [38] 1567-ci ildə də Təbrizdə zəlzələ baş vermiş lakin bu hadisənin fəsadları barədə dövrün mənbələri o qədər də geniş məlumat

---

[32]Musalı, *I Şah İsmayılın hakimiyyəti*, 363; Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 72, 159; Bosworth, *Historic Cities of the Islamic World*, 492.
[33] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 159.
[34] Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", 98; Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 70.
[35] Sara Aşurbəyli, *Şirvanşahlar dövləti*. Bakı: Avrasiya press, 2006: 168.
[36] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 257-258.
[37] Melville, "Historical Monuments and Earthquakes in Tabriz", 163.
[38] Zəka, *Zəminlərzeha-ye Təbriz*, 53.

vermir. Əbdi bəy Şirazi “Təkmiltül-Əxbar” əsərində bu barədə belə yazırdı: “Qəhqəhə qalasında Sam mirzə və övladlarının olduğu mənzildə Əlqasın oğlanları: Sultan Əhməd və Sultan Fərrux cəm olub söhbət edərkən təsadüfən güclü zəlzələ oldu və o mənzil onların başına uçdu. Hamısı həlak oldu. Bu bəndə [Əbdi bəy] bu qitəni [onların] tarixini qeyd etmək üçün nəzmə çəkdi:

Dünyanın tarixinə şad kəklik qəhqəhə çəkdi,
Saqinin əlinləki varlıq badəsi daimi deyil,
Elə ki, dedim Samın halı necədir və tarixinə nə deyirsən?
Cavabımda dedi: Dövləti-Təhmasib Şəh baqi»
(Şah Təhmasibin dövləti əbədi olsun).” [39]

Əsrin sonlarına doğru əhali sayının 360.000 nəfər olaraq göstərilməsi baş verən zəlzələlər zamanı həlak olan insan sayının yüksək olmasına və dağıntıların miqyasının geniş olmasına baxmayaraq şəhərin yenidən dirçəldiyini göstərir. Xüsusilə də XVII əsrin əvvəllərində Şah I Abbas (1587-1629) Osmanlı - Səfəvi müharibələri dövründə xeyli ziyan görmüş Təbriz əhalisini vergi və mükəlləfiyyətlərdən azad etməklə təsərrüfatın bərpasına imkan yaratdı. 1615-ci ildə Şah I Abbasın əmrilə hər il bir ay ərzində (ramazan ayında-E.N.) məmaliki-məhrusədə olan Təbriz əhalisi malü-xərac vergisindən azad edildi.[40] Bundan əlavə, həmin ildə darucəgi və dövlət hesabına alınan ehdas vergisi ləğv olundu. Bu tədbirlər Təbrizin iqtisadi dirçəlişi üçün müəyyən dərəcədə zəmin yaratdı. [41] Lakin, 1639-cu ildə Osmanlılarla müharibəni başa çatdıran Qəsri-Şirin sülhü imzalana qədər Təbriz əhalisi tez-tez məcburi yerdəyişmələrə məruz qaldığına görə əhali sayı ilə bağlı təxmini rəqəm söyləmək belə çətindir. 1617-ci ildə Təbrizdə olmuş ispaniyalı Qarsiya de Silvaya istinadən S.Onullahi yazırdı ki, “vaxtilə gözəl və abad olan bu şəhər indi dağılıb xarabalığa çevrilmişdi”. [42] S. Onullahi həm 1586-1603-cü illərdə Təbrizin Osmanlı işğalı altında olduğu vaxtı, həm də 1639-cu il sülhünə qədər Osmanlılarla davam edən müharibələri nəzərə alaraq Təbriz əhalisinin sayının 30.000-ə yaxın olması qənaətinə gəlir. Bu zaman o, çox güman ki, İsgəndər bəy Münşinin Təbrizdə 1585-ci ildə 50.000 nəfərə qədər döyüş qabiliyyətli kişi olmasını,

[39] Əbülfəz Rəhimli, *Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-Əxbar (Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi)*. Bakı: Elm, 1996, 125; Zəka, *Zəminlərzeha-ye Təbriz*, 53-54.
[40] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 150.
[41] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 150.
[42] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 160.

20.000 nəfərinin artıq 1586-cı ildə Osman paşanın əmri ilə öldürülməsini və baş verən köçləri nəzərə almışdı. Təbrizin əhali sayı XVII əsrin əvvəllərində təxminən 30.000 nəfər olaraq dəyərləndirilsə də görülən tədbirlər, xüsusilə də Şah I Səfi (1629-1642) dövründə aparılan abadlıq işləri və əhalinin xeyli hissəsinin yenidən öz doğma şəhərlərinə qayıtması artıq 1635-ci ildə əhali sayının 200-250.000 nəfərə, XVII əsrin ortalarında isə 300-400.000 nəfərə qədər yüksəlməsinə imkan verdi. [43] Lakin baş verən zəlzələlər əvvəlki dövrlərdə olduğu kimi yenə də əhali sayına təsirsiz ötüşmədi.

## XVII əsrdə Təbrizdə baş verən zəlzələlər

XVII əsrdə Azərbaycanın qədim şəhəri Təbrizdə baş verən 8 zəlzələ hadisəsindən (1623, 1633, 1640, 1641, 1650, 1657, 1664, 1668) ilk ikisinin əhali sayına hansı ölçüdə təsir etməsi məlum deyil. Məsələn, 1623-cü il zəlzələsi barədə məlumat verən S.Onullahi, Y.Zəka Əhməd Kəsrəviyə istinadən yazırdı ki, "hicri 1033 (miladi 1623)-cü ildə Təbrizdə şiddətli zəlzələ baş vermişdi. Lakin, onun təfsilatından bizim xəbərimiz yoxdur".[44] Bunun səbəbini izah edən Yəhya Zəka qeyd edirdi ki, bu zəlzələni mötəbər mənbələrdən heç biri xatırlamır və güman etmək olar ki, bu h.1133-cü ildə baş vermiş zəlzələdir və rəqəm oxşarlığına görə yanlışlıqla h.1033-cü il kimi qeyd olunmuşdu.[45] Eləcə də 1633-cü ildə qeydə alınan təkanlar zamanı nə qədər insan həlak olması da məlum olmur. [46] 1640-1641-ci illərdə baş verən Təbriz zəlzələsinin isə həm tarixi, həm də həlak olan insan sayı ilə bağlı yekdil fikir yoxdur. Çarlz Melvill 1640-cı il iyun ayının sonunda Hindistandan geri qayıdarkən Təbrizə səfər edən Karmelit missioneri Pere Filippin məlumatlarına istinad edərək zəlzələnin bu ildə baş vermə ehtimalını da qeyd edir. O, Pere Filippə istinadən yazırdı ki, missioner Təbrizdə olarkən şəhəri dağıntılar içərisində və boşalmış görür.[47] Manuel Berberian 6.8 bal gücündə 1641-ci il fevralın 5-də baş vermiş zəlzələdə həlak olanların sayını 12.613 nəfər olaraq qeyd edir. [48] Bu zəlzələnin tarixini Manueldən fərqli olaraq S.Onullahi 1640-ci il fevralın 27-i

---

[43] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 162.
[44] Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", 99; Zəka, *Zəminlərzeha-ye Təbriz*, 54.
[45] Zəka, *Zəminlərzeha-ye Təbriz*, 54.
[46] *Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.*, 30.
[47] Melville, "Historical Monuments and Earthquakes in Tabriz", 164; *Voyage d'Orient du Révérant Père Philippe de la Très Sainte Trinité*. Livre 2. Antoine Julliéron, Lyon, 1652, 110-111.
[48] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 260.

olaraq qeyd edir və hadisə zamanı Təbriz və onun ətrafında 4900 evin dağılmasını, 12.600 nəfərin həlak olmasını yazırdı. [49] Ə.Rəhmani də hadisənin baş vermə tarixini 1640-cı il göstərərək, hətta Molla Kamala istinadən Təbriz şəhəri də daxil olmaqla bütövlükdə Təbriz bəylərbəyliyində 12.982 ev dağılmasını qeyd etmişdi. [50] Bu hadisə ilə bağlı müxtəlif mənbələrə istinadən Berberian cədvəl tərtib etmiş və həmin cədvəldə həm mənbələrdəki hadisənin baş vermə tarixi, həm də həlak olanları sayı ilə bağlı verilən fərqli məlumatları xronoloji ardıcıllıqla qeyd etmişdir.[51] 2-ci cədvəldə verilən məlumatlardan aydın olur ki, 1640-1641-ci il Təbriz zəlzələsinin qurbanlarının sayı ilə bağlı rəqəmlər 1200-lə 200.000 nəfər arasında dəyişir:

| **Zəlzələ-dən illər sonra** | **Zəlzələnin baş vermə tarixi** | **Dağıtdığı ərazilər** | **İnsan itkisi (nəfərlə)** | **İstinad edilən mənbə** |
|---|---|---|---|---|
| 0 | 22.08.1050 (05.02.1641), Cümə günü axşam | Təbriz, Xosrovşah, Üskü, Dehqarqan | çox | Arakel Təbrizli “Tarix kitabı” |
| 0 | 04.11.1050 (1641.02.05) Cümə günü axşam | Təbriz, Dehqarqan, Dezajrud (?), Vidhar (Üskü), Gavakan (?), Sərdrud | 12 613 | Məhəmməd Nasir, “Toucih” əsərində |
| 0 | 1050 | Təbriz, Dehqarqan | 12 000 | İsgəndər bəy Münşi (964/1557-1052/1642), “Zeyl-e aləm ara-ye Abbasi” əsərində |

[49] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 160.
[50] Abullhasan Rahmani, Azerbaydjan v kontse *XVI i v XVII veke, 158.*
[51] Berberian, *Natural hazards and the first earthquake catalogue of Iran*, 184-187.

| | | | | |
|---|---|---|---|---|
| 3 | 1641 | Anziron (= Azərbaycan əyalətində) (Təbriz bəylərbəyliyi nəzərdə tutulur-E.N.) Rianqasan (?) və Rikan (?) | 200 000;100 000 | Theatrum Europaeum (Avropa teatrı) jurnalı (1644: Embreyzi və Melvillin 1982-ci ildə “A History of Persian Earthquakes” (Persiya zəlzələlərinin tarixi) əsərinə istinadən) |
| 7 | 1049 (1639) | Təbriz | - | Mustafa Hacı Xəlifə “Təqvim əl-təvarix” (1058/1648) əsərində |
| 14 | 1651 | Təbriz | - | J.B.Tavernye (1681) səyahətnaməsində (1655-ci ildə Təbrizdə olarkən) |
| 26 | 1642 | Tavriz [Təbriz] və Duhkurqan [Dehqarqan] | 1200 | Andreas Evdoketri tərəfindən 1667-ci ildə tamamlanmış “Anonim Erməni xronikası” əsərində (Hakobyanın “Manr Zhamanakagrutyunner XIII-XVIII DD (13-18-ci əsrlərdə Qısa Xronikalar) əsərinə istinadən, 1951) |
| 115 | - | Riki (?) | - | “Dressdnische Gelehrte Anzeigen” (1756) Embreyzi və Melvillin 1982-ci ildə “A History of Persian Earthquakes” əsərinə istinadən və s. |

*Cədvəl 2: 1641-ci il Təbriz zəlzələsi mənbələrdə*

Zəlzələ zamanı Təbriz şəhəri üçün həlak olan əhali sayını Berberianın Məhəmməd Nasir və İsgəndər bəy Münşinin əsərinə istinadən qeyd etdiyi kimi 12.000 nəfər (12.613 nəfər – E.N.) olaraq qəbul etmək daha məqbuldur. Təsadüfi deyil ki, zəlzələnin Təbriz üçün fəsadları barədə hesabat tərtib edən Məhəmməd Nasirin “Toucih” əsərinə istinadən Yəhya Zəka hətta ölən insanlar içərisində qadın kişi və uşaqların dəqiq sayını verir: “5984 nəfər kişi, 5144 nəfər qadın, 1485 nəfər uşaq”.[52] Çünki, XVII əsrin ortalarında şəhər üçün qeyd etdiyimiz əhali sayını bərpa etmək daha çox zaman aparardı. Molla Kamal ibn Cəlalın əsərində qeyd etdiyi kimi “Təbrizdə 12.982 evin

[52] Zəka, *Zəminlərzeha-ye Təbriz*, 58.

dağılması”(təxminən 64.910 nəfər əhalinin həlak olması-E.N.) faktı isə bütövlükdə bəylərbəyilik səviyyəsində zəlzələnin fəsadlarını göstərə bilərdi. Məhz bu aspektdən hadisəyə yanaşan Melvill və Embreyzi 2-ci cədvəldən də gördüyümüz kimi “Avropa teatrı” adlı jurnalın 1644-cü il buraxılışına istinadən hadisə qurbanlarının sayını Azərbaycan əyaləti (Təbriz bəylərbəyiliyi-E. N.) üzrə 200.000 nəfər olaraq qeyd edirdi. Hər halda zəlzələnin nəticəsi olduqca acınacaqlı olmuş və şəhərdə həm demoqrafik boşluğa, həm də böyük maddi itkilərə səbəb olmuşdur. Zəlzələ barədə geniş məlumat verən Arakel Təbrizlinin qeydlərindən bunu daha yaxşı anlamaq mümkündür. O yazır ki, “erməni tarixi ilə 1090-cı ilin fevralın 5-də, cümə günü Təbriz şəhərində və onun ətraf qavarlarında (qəsəbələrində-E.N.) qəflətən güclü təkanlarla yeri bütün qalınlığı ilə yarpaq kimi titrədən, yaxud da qabdakı su kimi müxtəlif istiqamətlərdə çalxalayan dəhşətli zəlzələ baş verdi... və o, bütün şəhər tikililərini dağıdaraq xaraba qoydu. Şəhərdəki gözəl və əzəmətli binaların bir çoxu bir göz qırpımında çökərək bir ovuc torpaq kimi qalaq-qalaq oldu. Zəlzələ zamanı “Ustad şagird” adlanan məşhur tikili çökdü... baş gicəlləndirici səmavi yüksəklikli minarə və qüllələri olan məscidlər yerlə bir oldu ..., şəhərdən azacıq aralıda Şor çayı sahilində yerləşən Şam Qazan adlı tikili dağıldı və divarları dörd hissəyə parçalandı... Bu zəlzələnin Təbrizə böyük zərər vurmasına baxmayaraq, Xosrovşah və Üskü kimi qavarlara, Duxurkan (Dehqarqan-E.N.) kimi yaşayış məntəqəsinə daha çox ziyan dəydi... Dağ başında olan bir kənd tamamilə torpaq altında qaldı. Dağlardan qara rəngli bulaqlar axdı. 3 gün yenidən şiddətli zəlzələ oldu, bu bulaqlar itdi, yeniləri əmələ gəldi. Bu zəlzələ altı ay davam etdi. İki ay ardıcıl olaraq gecə-gündüz zəlzələ oldu, sonralar getdikcə zəlzələlərin sayı azaldı”.[53] Lakin, Şah Səfinin əmrilə şəhərdə zəlzələdən dağılmış binaların bərpası üçün qısa müddətdə bir sıra tədbirlər görüldü. Əhali üç il müddətinə vergilərdən azad edildi. Az müddətdə şəhər yenidən abadlaşdı. [54] Zəlzələdən səkkiz il sonra, yəni 1648-ci il iyul ayının 28-də Təbrizdə olmuş və on beş gün orada qalmış fransız səyyahı Aleksandr do Ruda istinadən S.Onullahi yazırdı ki, səyyah Səfəvilər dövlətində ”səyahətdə olduğu zaman Təbriz kimi möhtəşəm, əhalisi çox olan zəngin şəhər” görməmişdir. [55] 1650-ci ildə Təbriz və onun ətraf qəsəbələri yenidən şiddətli zəlzələyə məruz qaldı. Dövrün

[53] Arakel Davrijetsi, *Kniqa istoriy*. Perevod s armyanskoqo, predisloviye i kommentariy L.A.Xanlaryana. M.: Nauka, 1973, 373-375.
[54] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 160.
[55] Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri*, 160-161.

şairlərindən Bəqayi Bədəxşi bu hadisəyə məsnəvi həsr etmişdir.[56] Onun bu məsnəvisinə istinadən S. Onullahi yazırdı ki, "Zəlzələ nəticəsində Təbriz xarabalığa çevrildi".[57] Lakin həm bu, həm də fəsadları yüksək olaraq göstərilən 1657, 1664, 1668-cü il zəlzələlərinin nəticəsi məlum deyil. Buna baxmayaraq mənbələrdəki əhali sayı ilə bağlı verilən məlumatlar dağıntıların fəsadlarının yenidən qısa müddət ərzində aradan qaldırıldığını göstərir. Belə ki, 1673-cü ildə Təbrizdə olmuş Jan Şarden yazırdı ki, "Təbrizin əhalisinin miqdarını müəyyən etmək üçün çox çalışdım. Demək olar ki, şəhər əhalisi 550.000 nəfərdir".[58] Şardenin Təbriz əhalisinin miqdarı barədə göstərdiyi rəqəm bir qədər çox görünür. Lakin şübhə yoxdur ki, XVII əsrin ortalarında Təbrizdə 300-400.000 əhali olmuşdur.[59]

[56] Zəka, *Zəminlərzeha-ye Təbriz*, 64-71.
[57] Onullahi, "Təbrizdə baş verən zəlzələlər haqqında", 99.
[58] *Voyages de Ma. Le Chevalier Chardin, En Perse, Et Autres Lieux De L' orient*. Tome second. Amsterdam, Chez Jean Louis de Lorme, MDCCXI (1711), 320.
[59] Seyidağa Onullahi, *XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*, Bakı: Elm, 1982, 161.

**Nəticə**

Bütövlükdə, XVI əsrin əvvəlləri ilə müqayisədə XVII əsrin sonuna doğru Təbriz şəhərində əhali sayının kəskin şəkildə azalması əsasən Azərbaycan Səfəvi dövlətinin tənəzzülü və süqutunun doğurduğu nəticələr ilə bağlı olsa da, onun daha da sürətlənməsində zəlzələlərin də müəyyən rolu olmuşdur. Bunu biz tədqiqata cəlb etdiyimiz istər Səfəvi, istərsə də xarici mənbələdəki məlumatlardan, o cümlədən də bu istiqamətdə tərtib edilən kataloqlardan, aparılan tədqiqatlardan da aydın şəkildə izləyə bilirik.

Aparılan tədqiqatlardan məlum olur ki, Təbrizdə baş vermiş bu təbii fəlakət bəzən 6 gün, bəzən isə fasilələrlə 6 aya qədər davam edib. Bu da təbii ki baş verən əhali itkisi və dağıntılara öz təsirini göstərmişdir. Xüsusilə 1641-ci il zəlzələsi XVI-XVII əsrlər ərzində Təbriz tarixində baş vermiş ən dəhşətli təbii fəlakət hesab edilə bilər. Artıq qeyd etdiyimiz kimi bu zəlzələ zamanı ölənlərin sayı ilə bağlı rəqəmlər bütövlükdə Təbriz bəylərbəyiliyi üzrə 100.000 nəfərdən də çox idi. Hətta bu zəlzələ zamanı tarixi baxımdan olduqca dəyərli memarlıq abidələri dağıntılara məruz qalmışdır. Buna baxmayaraq Şah Səfi dövründə Təbriz əhalisinin zəlzələdən sonra 3 il vergilərdən azad edilməsi kimi alınan qərarlar şəhərin yenidən əvvəlki əzəmətini bərpa etməsinə imkan vermişdir.

Aparılan tədqiqatların nəticəsi olaraq qeyd edək ki, XVI-XVII əsrlərdə Təbrizdə baş verən dağıdıcı zəlzələlər nəticəsini ümumi olaraq rəqəmlərin dili ilə tam olaraq ifadə etmək mümkün olmasa da, Təbriz bəylərbəyiliyi çərçivəsində həlak olanların sayının təxmini rəqəmlərə istinadən 300.000-dən çox olması qənaətinə gələ bilərik[*].

[*] Təxmini olaraq əldə olunan nəticə verilən cədvəllərdəki rəqəmlərə əsaslanır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

AŞURBƏYLİ, S., *Şirvanşahlar dövləti*, Bakı: Avrasiya press, 2006.

BAYRAMLI, Z.H., *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olumasında türk-qızılbaş əyanlarının rolu,* Bakı: Avropa, 2015.

MUSALI, N.S., *I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında)*, Bakı: Elm və Təhsil, 2011.

ONULLAHİ, S.M., “Təbrizdə baş verən zəlzələlər haqqında”, *Azərbaycan SSR EA Məruzələri*, sy. 1 (1976): 98-101.

ONULLAHİ, S.M., *XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*, Bakı: Elm, 1982.

RƏHİMLİ, Ə.H., *Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-Əxbar (Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi)*, Bakı: Elm, 1996.

DAVRİJETSİ, A., *Kniqa istoriy*. Perevod s armyanskoqo, predisloviye i kommentariy L.A.Xanlaryana, M.: Nauka, 1973.

PEÇEVİ, İ.E., *İstoriya. (İzvleçeniya po istoii Azerbaydjana i sopredelnıx stran i oblastey perioda 1520-1640 qq.)*, Baku: Elm, 1988.

RAHMANİ, A.A., *Azerbaydjan v kontse XVI i v XVII veke (1590-1700 qodı)*, Baku: Elm, 1981.

*Rossiya i Yevropa qlazami Orudj-Beka Bayata – Don Juana Persidskoqo*, SPb: İzdatelstvo SPbQU, 2007.

BERBERİAN, M. *Natural hazards and the first earthquake catalogue of Iran. Volume 1: Historical hazards in Iran prior to 1990*, Tehran: IIEES, 1995.

BOSWORTH, C.E. *Historic Cities of the Islamic World*. Leiden-Boston: Brill, 2007.

*Catalog of significant earthquakes 2150 B.C.-1991 A.D.* USA: U.S. Dept. of Commerce, National Oceanic and Atmospheric Administration, National Environmental Satellite, Data, and Information Service, National Geophysical Data Center. 1992.

LE STRANGE, G. *Don Juan of Persia A Shi'ah Catholic 1560–1604*, Publishers Harper- Brothers. New York and London, 1926.

MELVILLE, C. "Historical Monuments and Earthquakes in Tabriz", *Iran*, vol. 19 (1981): 159-177.

*Voyages de M[a]. Le Chevalier Chardin, En Perse, Et Autres Lieux De L' orient.* Tome second. Amsterdam, Chez Jean Louis de Lorme, MDCCXI (1711).

ZƏKA, Y. *Zəminlərzeha-ye Təbriz*. Tehran: Ketabsəra, 1368.

*Voyage d'Orient du Révérant Père Philippe de la Très Sainte Trinité*, Livre 2. Antoine Julliéron, Lyon, 1652.